# Əziz ağstafalılar! Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramları münasibətilə təbrik edirik!



"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

*Heydər Əliyev - xalq birliyi əbədidir!*


# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 24-25 (1039-1040) 27 dekabr 2018-ci il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı


# Dünya azərbaycanlılarına

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.



2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il.*

# Yeni iliniz mübarək, əziz ağstafalılar

Doğma Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılan daha bir il arxada qalır. Yola salacağımız 2018-ci il bir çox tarixi hadisələr, sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi ilə kimi uzun müddət yaddaşlarda qalacaqdır. Tariximizin şanlı səhifələrindən biri olan 2018-ci il həm də Azərbaycan Xalq Cümhuriyyəti ili kimi təkcə azərbaycanlıların deyil, həm də ölkəmizdəki siyasi sabitliyi, tolerantlığı, sürətli inkişafı görən bütün dünya xalqlarının xatirində qalacaqdır.

2018-ci ildə yurdumuzun hər yerində olduğu kimi, Ağstafada da sosial-iqtisadi sahələrdə uğurlu nəticələr əldə olunmuşdur. Rayonda aparılan abadlıq-quruculuq işləri yola saldığımız ildə də sürətlə davam etdirilmiş, rayonun ərazisində dörd böyük körpü inşa olunmuş, rayon mərkəzindən uzaqda yerləşən bütün kəndlərə gedən yollar abadlaşdırılmışdır. Bütün vətəndaşlar üçün vacib məsələ olan mavi yanacaq problemi rayonumuzda demək olar ki, tamamilə həll olunmuş, əhalinin içməli su təminatının yaxşılaşdırılmasının yeni layihəsi həyata keçirilmişdir.

Rayonda inşa olunan xalçaçılıq fabrikinin, Aqrar-sənaye kompleksinin tikintisi başa çatdırılmış, Qarayazı qəsəbəsində modul tipli məktəb inşa olunmuş, Böyük-Kəsik qəsəbəsində yeni məktəb binasının inşasına başlanılmışdır. Bütün bunlar onu göstərir ki, doğma Ağstafamız respublikamızın ən sürətlə inkişaf edən rayonlarından biridir. Əldə edilmiş nailiyyətlər ağstafalıların qəlbində böyük ruh yüksəkliyi yaratmış, gələcəkdə rayonumuzda daha böyük layihələrin həyata keçirilməsi üçün onlarda inam hissi doğurmuşdur. Əlbəttə, həyata keçirilən tədbirlər respublika prezidenti cənab İlham Əliyevin təşəbbüsü, qayğısı və diqqəti sayəsində mövcud olmuşdur. Bu gün əminliklə deyə bilərəm ki, qazanılmış uğurlu qələbələr 2019-cu ildə də davam etdiriləcəkdir. Qarşıdan gələn ildə biz həmılıqla əl-ələ verib böyük inamla çalışacaq, hörmətli prezidentimiz cənab İlham Əliyevin Azərbaycan xalqına göstərdiyi diqqət və qayğıya öz əməli işimizlə cavab verəcəyik.

Əziz ağstafalılar, mən 2018-ci ildə əldə olunmuş bütün nailiyyətlərə görə hər bir ağstafalıya öz dərin minnətdarlığımı bildirir və əminəm ki, sizlər əvvəlki illərdəki ənənələrə sadiq qalacaq, qazanılmış nailiyyətlərin sayını artırmaq üçün var qüvvə ilə çalışacaqsınız.

Artıq yeni il evlərimizin astanasındadır. Bütün xalqımız kimi, ağstafalılar da Dünya Azərbaycanlılarının Həmrəylik Gününü, Yeni ili böyük sevinclə qarşılayırlar. Mən Rayon icra hakimiyyəti aparatının işçiləri adından və şəxsən öz adımdan hamınızı böyük bayramlar münasibətilə təbrik edir, sizlərə möhkəm can sağlığı, ailə səadəti arzulayır və bir daha qarşıdan gələn Yeni ilinizi təbrik edirəm.

Yeni iliniz mübarək!

***Məhərrəm Quliyev,***
***Rayon icra hakimiyyətinin başçısı***

# 2018-ci ilin son görüşləri



Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin yerlərdə ictimaiyyətlə görüş keçirməsi 2018-ci ildə də uğurla davam etdirilmişdi. Həmin görüşlərdə rayonun bütün idarə, müəssisələrinin, hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmiş və bu görüşlərdə vətəndaşları narahat edən problemlər, çətinliklər öyrənilmiş və həmin problemlərin həll olunması üçün həmişə konkret tədbirlər görülmüşdür. Belə görüşlərdən biri də dekabr ayının son günlərində rayon mərkəzindən xeyli uzaqda yerləşən Ağgöl kəndində və Soyuqbulaq qəsəbəsində keçirilmişdir. Həmin görüşlərdə Rayon icra hakimiyyətinin başçısı M. Quliyev ictimaiyyət qarşısında geniş nitq



söyləyərək ölkəmizdə sosial-iqtisadi sahədə uğurla həyata keçirilən tədbirlərdən geniş söhbət açmış, bölgəmizə ölkə rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğıdan, ordu quruculuğu sahəsində görülən işlərdən və bundan sonra icrası nəzərdə tutulan işlər haqqında geniş məlumat vermişdir.

İcra başçısı Məhərrəm Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaş müraciətlərinə həssaslıqla yanaşması, ölkədə məmur-vətəndaş münasibətlərinin formalaşması barəsində tapşırıqlarını diqqətə çatdırmışdır. M. Quliyev son illər rayonun ictimai-siyasi həyatında baş verən müsbət dəyişikliklər barəsində də qısa məlumat verərək bildirmişdir ki, son beş ildə rayonda görülən işlər əvvəlki 20 ildə görülən işlərdən qat-qat çoxdur. Rayonun bütün kəndlərinə gedən yolların asfaltlaşdırılması, yeni sənaye fabriklərinin inşa edilməsi, yeni körpülərin salınması, məktəblərin, uşaq bağçalarının inşa olunması həmin işlərə bariz nümunədir.

M.Quliyev kənd sakinləri ilə görüşə gəlməyinin məqsədini bildirdikdən sonra onlara müraciət edərək kənddəki problemlərdən, çətinliklərdən danışmalarını xahiş etdi.

Ağgöl kəndində keçirilən görüş zamanı kənd sakini Kəmaləddin Mansırov son illər rayonda görülən işləri müsbət qiymətləndirdi və bütün bunlara görə ölkə başçısına və rayon rəhbərliyinə dərin minnətdarlığını bildirdi. O, qeyd etdi ki, rayon mərkəzindən Böyük-Kəsik kəndinə gələn yol asfaltlaşdırılmışdır. Lakin həmin kənddən Ağgöl kəndinə gələn yolda ciddi narahatçılıq vardır. Havalar yağmurlu keçərkən bu yol illə uşaqların məktəbə getməsində ciddi çətinliklər yaranır. K. Mansırov həmin avtomobil yolunun yenidən qurulmasında onlara köməklik göstərilməsini xahiş etdi.

Görüşdə çıxış edən Nizami



Binnətov Ağgöl kəndinə verilən təbii qazın təzyiqinin aşağı olmasını bildirdi. Kənd sakini Ramiz Şamilov isə kənddə telekommunikasiya



qovşağının yaradılmasını xahiş etdi.

Görüşdə çıxış edənlər nəzərə alındı. Rayon icra başçısı M. Quliyev vətəndaşlar tərəfindən qaldırılan bütün məsələlərə dair aidiyyəti üzrə idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

* * *

Rayon icra hakimiyyətinin başçısı M. Quliyev həmin gün Soyuqbulaq qəsəbəsində də səyyar görüş keçirdi. Görüşdə iştirak edən qəsəbə sakinləri Rəfailə Hacıyeva suvarma arxlarının betonlaşdırılmasını, Pakizə Abdullayeva Köçvəlili kəndində yeni orta məktəb binasının inşa olunmasını, Çernobıl əlili Əmrah Məmmədov mənzillə təmin olunmasını rayon rəhbərliyindən xahiş etdilər. Görüşdə irəli sürülən təkliflər, edilən xahişlər nəzərə alındı və aidiyyəti üzrə tapşırıqlar verildi.

# Növbəti şura iclasında



Rayon İcra hakimiyyəti başçısı yanında şuranın növbəti geniş tərkibli iclası keçirildi. İcra başçısı cənab Məhərrəm Quliyevin sədrliyi ilə keçirilən iclasda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, yerli icra nümayəndələri və bələdiyyə sədrləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Şura iclasında Rayon İcra Hakimiyyəti başçısı Məhərrəm Quliyev ilk öncə şuranın müzakirəsinə çıxarılan məsələlər barədə ətraflı məlumat verdi. İcra hakimiyyətinin başçısının müavini Aydın Hacıyev Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə “Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin Ağstafa rayonunda həyata keçirilməsinin vəziyyəti barədə çıxış etdi. Qeyd etdi ki, Azərbaycanda dayanıqlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətinin və sosial rifahının daha da yüksəldilməsinə xidmət edəcəkdir.

İcra hakimiyyəti başçısının müavini Lalə Eyyubova rayonda ictimai təşkilatlar, siyasi partiyalarla və kütləvi informasiya vasitələri ilə aparılan işin qanunauyğun tənzimlənməsi, “Dini etiqat azadlığı haqqında” Azərbaycan Respublikası qanunlarının tələblərinin icrasının, dini tolerantlığın təmin olunması sahəsində maarifləndirmə tədbirlərinin keçirilməsi barədə geniş məruzə etdi.

Məsələlər ətrafında geniş müzakirələr aparıldı, İcra başçısı aidiyyatı üzrə müvafiq tapşırıqlarını verildi.

Şura iclasının gündəliyində olan məsələlər geniş müzakirə olundu və qərar qəbul edildi.

# İçməli su qurğusunun tikintisi davam edir

Vurğun qəsəbəsinin mərkəzində “Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial İqtisadi İnkişafı Dövlət Proqramı”na uyğun olaraq Ağstafa rayonunda əhalinin daha da təmiz və şəffaf içməli su ilə təmin olunması məqsədilə müvafiq içməli su təmizləyici qurğu kompleksinin inşası sürətlə davam edir”. Burada inşa olunan bir ədəd su anbarında, bir ədəd nasosxana binası su təmizləyici qurğu olan “Osmos” qurğusu və idarəetmə binalarında son tamamlama işləri görülür.

Rayon icra hakimiyyətinin başçısı M. Quliyev qurğuda işlərin gedişi ilə yaxından tanış olmaq üçün bu günlər həmin kompleksdə olmuşdur. M. Quliyevə məlumat verilmişdir ki, mərkəzdə iki ədəd 1000 kubmetr və iki ədəd 1500 kubmetr su anbarında toplanan su xlorlandıqdan sonra 24 saat ərzində əhalini fasiləsiz olaraq içməli su ilə təmin edəcəkdir. Mövcud su anbarı yerləşən ərazidə xlorator qurğusu laboratoriya, şəhər ərazisində suyun təzyiqli ötürülməsi üçün nasosxana və subartezianların, həmçinin su anbarlarının həcminin mərkəzdən idarə olunması üçün “Skada” qurğusu mövcuddur. Gündəlik olaraq laboratoriyada suyun kimyəvi və bakterioloji tərkibi yoxlanıldıqdan sonra əhalinin istifadəsinə veriləcəkdir.



# Ağstafada məmur adı gələndə "dinləyən", qayğı göstərən, "kömək edən" yada düşür...

***Məmur adını əvvəllər heç xoşlamırdım. Bilmirəm, bəlkə də vaxtilə bəziləri bu adı bir qədər bizdən uzaqlaşdırıblar, yadlaşdırıblar nədir, "məmur" deyəndə, ilk növbədə, gözlərim önünə qapısını ehtiyatla döydüyümüz, amiranə səsi ilə "gəl" deyərək əyləşdiyi kürsüdə özünü bir qədər də dartıb "eşidirəm" deyən adam təsəvvür etmişəm. Amma açıb ensiklopediyaya baxın. Məmur dövlət idarələrində çalışan qulluqçuya, dövlət xidmətçisinə deyilir. Rusların təbirincə desək: çinovnik... Görün, Prezidentimiz bu barədə necə gözəl deyib: "Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz, bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq".***

...İşimlə bağlı rayon icra hakimiyyətlərinə tez-tez gedirəm, icra başçıları, onların müavinləri, aparatın digər işçiləri ilə müntəzəm görüşüb söhbət edirəm. Amma məni "məmur" dediyimiz bu insanların sadə vətəndaşlarla rəftarı, ünsiyyəti, onlara münasibəti daha çox maraqlandırır. Elə ona görə də çox zaman təkid edirəm ki, səyyar görüşlərdə, fərdi qəbullarda iştirak edim, gördüklərimi, müşahidə etdiklərimi, adamların problemlərini, istəklərini, bəzən də maraqlı təkliflərini qələmə ala bilim.

Heç yadımdan çıxmır. Qərb bölgəsi rayonlarının birində səyyar qəbulda iştirak edirdim. Şikayətçi rayon rəhbərini artıq hövsələdən çıxarmışdı. Birdən o, necə qışqırdısa, şikayətçi əlində tutduğu tükləri tökülmüş papağını özü də hiss etmədən ona tərəf tulladı.Bir anlığa ortaya sükut çöksə də başçının özünü saxlaya bilməyib ucadan gülməsi gərginliyi aradan qaldırdı. Rayon rəhbərinin qəbuldan sonra "mən düz eləmədim, gərək dözəydim, o nə qədər haqsız olsa da" deməsi bir daha göstərirdi ki, məmur bütün hallarda xidmətçi olduğunu unutmamalıdır.

Məmur-vətəndaş münasibətlərindən yazmaq bir qədər çətindir. Çünki sənə təqdim olunan arayışlarda bu münasibətlərin normal olduğunu, müxtəlif görüşlərin, tədbirlərin səmərə verdiyini yazacaqlar. Hətta sənin iştirak etdiyin səyyar qəbul – görüşlərdə də bunu əməlli-başlı öyrənə bilməyəcəksən. Əvvəlcədən hazırlanan görüş, təlimat verilmiş vətəndaşlar və sair...

Deməli, bütün hallarda özünün müşahidələrin, vətəndaşların fikirləri, ən başlıcası isə qaldırılan problemlərin, təkliflərin, şikayətlərin (söhbət haqlı şikayətlərdən gedir) həlli ilə bağlı görülən işlərə qiymət vermək lazımdır. Elə, əsl məmur-vətəndaş münasibətlərinə də bu meyarlardan yanaşılmalıdır. Bu mövzu həmişə aktualdır və indi xüsusi əhəmiyyət kəsb edir. Bütün bunları nəzərə alıb şəhər və rayonlarda məmur - vətəndaş münasibətlərinin səviyyəsi barədə bir neçə yazı ilə çıxış edəcəyik. İlk belə yazı Ağstafa rayonu haqqındadır.

Hələ tam tanımadığım vaxtlarda rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev adama (bu mənim şəxsi qənaətimdir) daha rəsmi, yuxarıda qeyd etdiyim məmur təsiri bağışlayırdı. Lakin onunla yaxından tanış olduqdan, başlıcası isə adamların rayon rəhbərinə münasibətini öyrəndikdən, Ağstafada illərdən qalan problemlərin, necə deyərlər, çözülməsindən sonra fikrim tamamilə dəyişdi...



Rayon icra hakimiyyətinin binasında həmişə qəribə bir sükut olur. Dəhlizlə gedirsən, heç bir otaqdan səs gəlmir. Sanki heç kim yoxdur. Amma ara-sıra çalınan telefon zəngləri eşidərkən, hansısa otaqdan razı halda çıxıb gedən vətəndaş görərkən hiss edirsən ki, burada iş gedir. Sadəcə, nizam-intizam o qədər güclüdür ki, artıq hərəkət, davranışla, səs-küylə rastlaşmaq qeyri-mümkündür. Aparatın hər bir işçisi gün ərzində görəcəyi işi əvvəlcədən bilir. Kor-korana, əyləşib yalnız başçının tapşırıqlarını gözləmək söhbətləri çoxdan yığışdırılıb. Ortada həmişə planauyğun, məqsədli, günün tələblərinə cavab verən iş var. Tədbirlər yüksək səviyyədə keçirilir. Hər hansı bir tədbirdə və ya toplantıda mikrofonun əcaib səs çıxarması böyük sensassiyaya səbəb ola bilər. İşə, tədbirə, görüşə gecikmək, vətəndaşın müraciətinə vaxtında cavab verməmək, yaxud kobud rəftar etmək kimi məsələlərə olduqca sərt təpki var. Hər halda, rayon icra hakimiyyətrinin bu iş üsulu özünü doğruldur və bütün sahələrə istər-istəməz öz müsbət təsirini göstərir. Təbii ki, bu vəzifəyədək Prezident Administrasiyasında məsul işdə çalışan Məhərrəm Quliyev orada əldə etdiyi təcrübəni, iş üsulunu, ab-havanı burada tətbiq etməyə çalışıb və sevindirici haldır ki, buna nail olub. İlk baxışda bunlar adi bir iş təsiri bağışlaya bilər. Lakin diqqətlə araşdırdıqda, bütün bunlar bilavasitə məmur-vətəndaş münasibətlərinə də təsir edən amillərdəndir.

Məhərrəm Quliyev Ağstafada işlədiyi illər ərzində bəzi məmurlar ətrafında yaranan «buzu əritməyə» çalışıb. Əvvəla, adamlarla görüşdən heç vaxt çəkinməyib, əksinə, özü onların yanına gedib, dərd-sərləri ilə maraqlanıb. Bir çox məsələləri yerindəcə və ya nəzərdə tutulan vaxtda həll etməsi ona adamlar arasında hörmət qazandırıb.Rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova maraqlı bir epizod danışdı. Dedi ki, hansısa kənddəydik, səyyar qəbul başa çatmışdı, hamımız da yorulmuşduq. Amma gördük ki, Məhərrəm müəllim getmək istəmir, sanki nəsə hiss etmişdi və «ayrı kimin nə sualı var?» deyə təkidlə, dönə-dönə soruşurdu .Birdən ağsaqqal bir kişi çəkinə-çəkinə söz istədi və maraqlıdır ki, çox vacib bir problemə toxundu, onun həllini xahiş etdi. Ertəsi gün aparatdaxili müşavirədə rayon rəhbəri deyirmiş ki, "çalışın, adamların ürəyini oxuya biləsiniz. Mən o kişinin baxışlarından hiss etmişdim ki, nəsə ciddi bir sözü var, sadəcə, deməyə ürək eləmir".

Rayonda aparılan islahatlar Ağstafanı tanınmaz dərəcədə dəyişdirib. Sosial məsələlərin böyük əksəriyyəti həll olunub. Daha əvvəlki kimi qaz, işıq problemləri yoxdur. Ağstafada elə asfalt yollar çəkilib ki, hamı həsəd apara bilər. Evlər, müxtəlif ictimai binalar öz görkəmini dəyişir. Amma dəyişən təkcə bunlar deyil axı. Dəyişən insanlara, sadə vətəndaşlara olan münasibətdir, diqqətdir, qayğıdır, onların problemlərini özününküləşdirməkdir. Özü də Ağstafa elə bir yerdir ki, yaxşı iş də, naqis iş də tez yayılır, müzakirə olunur. Əgər rayon rəhbəri bazara gedib qiymətlərlə maraqlanırsa, alıcılarla, satıcılarla görüşürsə, çayçıda bir qrup ağsaqqalı görüb onlarla əyləşib bir stəkan çay içirsə, dərdləşirsə, 95 yaşlı ağbirçək nənəni, Sosialist Əməyi Qəhrəmanını evində bir tortla təbrik edirsə, binaları, küçələri təmir ediləcək sakinlərlə əvvəlcədən bir-bir görüşüb məsləhətləşirsə... bunlar mütləq hər yerdə danışılır, kənddən-kəndə yayılır. Məhərrəm Quliyev rayonda görülən bütün işləri Prezident İlham Əliyevin Ağstafaya və ağstafalılara töhfəsi hesab edir. Əslində, bu, doğrudan da belədir. Ölkə rəhbərinin son illərdə Ağstafaya bir neçə dəfə səfər etməsi, əksər obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etməsi, müxtəlif vaxtlarda vəsait ayrılması haqqında sərəncamlar imzalaması deyilənlərin əyani sübutudur.

...Ağstafada məmur adı gələndə "dinləyən", "kömək edən" yada düşür. Təəssüf ki, bəzən vətəndaşların bir çoxu müraciət etmək hüququndan, məmurun məhz belə səmimi münasibətindən sui-istifadə edərək müəyyən təzyiqlər vasitəsilə əsassız tələblərinin yerinə yetirilməsinə də cəhd göstərir. Məlumdur ki, qəbulların əsas prinsipi vətəndaşı dinləmək və kömək etməkdir. Çünki uzaq məsafəni qət edərək qəbula gələn vətəndaş onu dinləyən şəxsin ədalətinə, xeyirxahlığına, kömək əli uzadacağına ümid edir və heç naümid qayıdacağına da inanmır.

Qəbul məsələləri öyrənilərkən məlum olur ki, əvvəlki illərlə müqayisədə qəbulların təşkili işi xeyli yaxşılaşmışdır. Qanunvericiliyə uyğun olaraq, vətəndaşların əvvəlcədən müəyyən edilmiş günlərdə və saatlarda qəbul edilməsi, ümumilikdə isə qəbul işinin səmərəliliyinin artırılması üçün müvafiq tədbirlər görülür. Təsadüfi deyil ki, həftənin bütün iş günləri qəbul var. Məsələn, ilin əvvəlindən indiyədək icra hakimiyyəti başçısı aparatında 871 nəfər vətəndaş qəbul edilmişdir.

Rayon icra hakimiyyətinin rəsmi internet səhifəsi "agstafaih.gov.az" və həmin səhifədə vətəndaşlar üçün "elektron müraciət" bölməsi fəaliyyət göstərir ki, icra hakimiyyətində və yerlərdə vətəndaşların qəbulu barədə oradan da məlumat almaq olur.

Vətəndaşların ən çox istifadə etdikləri müraciət formalarından biri də məktublar və digər yazılı müraciətlərdir. Hər hansı bir problemlə rastlaşan vətəndaş, ilk növbədə yaşadığı ərazidə, işlədiyi müəssisədə rəhbər vəzifəli şəxslərdən, yaxud aidiyyəti dövlət qurumunun rəhbərindən kömək istəyir və öz problemi ilə onların yanına üz tutur.

Məsələn, bu ilin ötən 11 ayında RİH başçısı aparatına cəmi 954 müraciət daxil olmuşdur ki, bunlardan da böyük əksəriyyəti – 867-si adicə ərizədir. Maraqlıdır ki, cəmi 87 şikayət ərizəsi olub ki, onun da 41-i, yəni təxminən yarısı əsassızdır. Bu müraciətlərin 272-si Prezident Administrasiyasından, 16-sı Milli Məclisdən, 17-si Nazirlər Kabinetindən, 54-ü digər yuxarı orqanlardan və 595-i bilavasitə vətəndaşların özləri tərəfindən daxil olmuşdur.

Qaldırılan məsələlərdən 168-i həll olunmuş, 673-ü əsassız sayılmış və ya müvafiq izahat verilmiş, 64-nün həlli rayon icra hakimiyyətinin səlahiyyəti daxilində olmadığı üçün aidiyyəti təşkilatlara göndərilmişdir.

Cari ildə rayon icra hakimiyyətinin başçısı 36 səyyar qəbul keçirib. Bu qəbullar Ağstafanın 39 yaşayış məntəqəsindən 1 şəhəri, 5 qəsəbəni, 26 kəndi əhatə etmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 3900 nəfəri keçmiş, 369 təklif irəli sürülmüşdür.

Qeyd edək ki, qaldırılan problem və təkliflərin indiyədək 182-si həll olunub, 52-sinin isə icrası davam etdirilir. Digər təkliflərin icrasının növbəti illərdə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, icra hakimiyyəti başçısı aparatında 871 nəfər vətəndaş qəbul edilmişdir.

Bəs Ağstafada adamlar daha çox nədən yazırlar? Maraqlanmışıq. Məlum olub ki, vətəndaşların müraciətləri əsasən əlillik dərəcəsinin, ünvanlı sosial yardımın verilməsi, evlərinin təmir olunması, xaricdə müalicə almaları üçün yardım edilməsi, kommunal xərclərin ödənilməsi, təzə tikilmiş evlərə qaz, elektrik enerjisi, içməli su xətləri çəkilməsi barədə olur. Rayon icra hakimiyyəti bunu da nəzərə alaraq, bir sıra hallarda yerli sahibkar və imkanlı şəxslərin maliyyə dəstəyi ilə vətəndaşlara qismən kömək göstərə bilir. Lakin nəyin bahasına olursa-olsun ələbaxımlıq hallarının tamamilə aradan qaldırılması üçün Ağstafada kompleks tədbirlər görülür və son illər buna nail olunur.

Ağstafa indi təkcə kənd təsərrüfatı rayonu kimi deyil, həm də sənaye rayonu kimi tanınmağa başlayıb. Rayonda elə sənaye kompleksləri, emal müəssisələri tikilib istifadəyə verilib ki, onlar bir çox sənaye şəhərlərində yoxdur. Yəni, kifayət qədər iş yerləri var. Torpaqda çalışanlara, əkib-biçənlərə nəinki manecilik, əksinə, hərtərəfli dəstək var. Məhərrəm Quliyevin özü becərilən torpaqları gəzib, adamların problemləri, çətinlikləri ilə maraqlanıb, su, texnika, dərman peraparatları sarıdan köməyini əsirgəməyib. Bunu rayonda hamı bilir.

...Ağstafalılar bu gün-güzəranlarından razıdırlar. Sabaha da ümüdlə baxırlar.Azərbaycanın hər yerində olduğu kimi, bu rayonda da dövlətə və dövlətçiliyə, ölkə Prezidentinə böyük inam var. O yerdə ki, məmur-vətəndaş münasibətlərində səmimiyyət, qarşılıqlı anlaşma hökm sürür, o zaman bütün çətinliklər dəf edilir. Elə Ağstafada olduğu kimi...

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"***
***20 dekabr 2018-ci il***

# Ağstafa Aqroparkında “Qış yarmarkası”

Artıq bir neçə gündür ki, “Böyük çillə” yurdumuza qədəm qoymuş, qış fəsli hər yanı soyuğa qərq etmişdir. Bütün bunlara baxmayaraq, qarşıdan gələn yeni ilin sevinci və bu sevincin insanların qəlbinə gətirdiyi hərarət qışın soyuğunu və sərtliyini dəf edir.





Dünyanın hər yerində olduğu kimi, Ağstafada da Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni ilə ciddi hazırlıq görülmüş, bu əlamətdar günləri layiqincə keçirmək üçün artıq böyük bayram tədbirlərinə başlanılmışdır. `





Dekabrın 24-də Ağstafa Aqroparkı bayramsayağı bəzədilmiş, həyətində təşkil olunmuş möhtəşəm yeni il konserti ağstafalıların qış sevincinin başlanmasına səbəb olmuşdur. Həmin gün respublikada ən böyük sənaye müəssisələrindən biri kimi inşa olunmuş Ağstafa Aqroparkında yeni il şənliyinə hazırlıq nəinki ağstafalıların, eləcə də Bakı-Qazax magistral yolundan keçən bütün vətəndaşların diqqətini cəlb etmişdir.





Rayon icra hakimiyyətinin və Ağstafa Aqroparkın rəhbərliyinin təşəbbüsü ilə təşkil olunmuş “Qış yarmarkası” rəngarəng konsert proqramı ilə başçlandı. Rayonun şəhər və kəndlərindən bu konserti dinləmək, Aqroparkın həyətində gözoxşayan bayram təntənələrinə tamaşa etmək üçün bura gələn saysız-hesabsız adamlar-ağsaqqallar və ziyalılar, idarə və müəssisə kollektivləri, səhiyyə və mədəniyyət işçiləri, yeniyetmə və gənclər sanki buradakı gözəlliyi görəndə gözlərinə inanmadılar.





Füsunkar axşam mənzərəsi, hər tərəfə nur saçan gur işıqlar, yeni ilin gəlişini xəbər verən qış lövhələri sözün əsl mənasında hamını ovsunlamışdı.

“Kainat” instrumental musiqi kollektivinin və respublikanın incəsənət ustalarının rəngarəng musiqi proqramı bu qış möcüzəsinə başqa bir ahəng qatmışdı. Respublikamızın paytaxtından bu tədbirə təşrif buyurmuş istedadlı müğənnilərin çıxışları hər dəfə tamaşaçıların gur alqışları ilə qarşılanırdı.

“Qış yarmarkası”bayram tənətənəsi Azərbaycan Televiziyasının ATV kanalında birbaşa yayımlanırdı. Təntənəli bayram tədbiri gecədən xeyli keçənədək davam etdi. Havanın soyuq və sazaqlı olmasına baxmayaraq heç kim evə tələsmirdi. Tədbirə gələnlər bu möcüzəli bayram təravətindən ayrılmaq istəmirdilər.

Bayram konserti yekunlaşdıqdan sonra havaya buraxılan yaylım atəşləri sanki bütün Ağstafanı öz ağuşuna almışdı.

Aqroparkda keçirilən “Qış yarmarkası” bununla yekunlaşmırdı. Tədbirin təşkilatçıları bildirdilər ki, bu bayram şənliyi dekabrın sonunadək davam edəcəkdir.





Dekabrın 24-də Aqroparkda keçirilən bayram tədbiri həm də möhtərəm prezidentimiz İlham Əliyevin ad gününə ağstafalıların layiqli töhfəsi idi. Başdan-başa sevinc və şadlıq duyğuları ilə dolu olan bu şənlik gecəsi xalqımızın öz rəhbərinə sonsuz inamının və məhəbbətinin təntənəsinə çevrildi.

“Qış yarmarkası” dekabr ayının 25-i və 26-da da möhtəşəm şəkildə keçirildi. Həmin günlərdə tədbirə təşrif buyuranlar müharibə iştirakçıları, əlillər, şəhid ailələri və gələcəyimiz olan uşaqlar oldular.

# Dövlət başçımızın qayğısından həmişə bəhrələnmişik



Ömürdən-gündən keçən daha bir il arxada qalır. 2018-ci il və eləcə də əvvəlki illər yaşadığım və icra nümayəndəsi olduğum Göycəli kəndinin əhalisi üçün də əlamətdar bir dövr olmuşdur.

Arxada qalan illəri yaxşı xatırlayıram. Çünki mən yaşadığım Göycəli kəndində doğulmuş, boya-başa çatmış və bu kənddə orta təhsil almışam. Orta məktəbi bitirdikdən sonra təhsilimi davam etdirmiş, filoloq, hüquqşünas ixtisasına yiyələnmişəm. Bir çox vəzifələrdə çalışmış və sonuncu dəfə Qazax rayon Polis Şöbəsində məsul işdə işləmişəm.

Ötən illəri xatırlayıb göz önünə gətirəndə görülmüş işləri çəkilən zəhmətləri aydın görür və hər şey mənim üçün əziz xatirələr kimi ömür səhifəmə yazılır. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Göycəli kəndi rayonumuzun ən nümunəvi yaşayış məntəqələrindən biridir. Biz göycəlilər həmişə dövlətimizin diqqət və qayğısını görmüş, canlı şahidi olmuş və həmin qayğıdan bəhrələnmişik.

Keçən əsrin sonlarında atam Fərzalı Abbasov kəndimizin iqtisadiyyatının əsasını təşkil edən üzümçülük sahəsində işləmiş, ömrünün son illərində isə kənd icra nümayəndəsi vəzifəsində çalışmışdır. Yaxşı yadımdadır, həmin illərdə kəndimizdə tədarük olunan üzümün 1000 tondan çoxu atamın rəhbərlik etdiyi üzümçülük briqadasının üzvləri tərəfindən yığılırdı. Bu yüksək göstərici dövlət başçımız tərəfindən həmişə yüksək qiymətləndirilmiş, atama Lenin ordeni, Qırmızı Əmək bayrağı və Oktyabr İnqilabı ordeni verilmiş, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Həmin illərdə kəndimizin sosial iqtisadi həyatında böyük dəyişiklikər olmuş, heç bir kənd yolu asfaltlanmadığı halda bizim kəndimizin yoluna asfalt örtük salınmışdır.

Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı bu gün də davam etməkdədir. Ötən dövrdə kəndimizdə müasir tipli yeni məktəb binası inşa olunmuş, nörmal həyat tərzi üçün vacib olan mavi yanacaq problemi aradan qaldırılmış, mənzillərin elektrik enerjisi ilə təmin olunması deməк olar ki, tam həll olunmuşdur. Bu gün artıq kəndarası yollarımızda təmir-bərpa işləri aparırıq. Əksər küçələr xırlanmış, 500 metr məsafəyə asfalt örtük salınmışdır.

Kənd əhalisinin içməli və suvarma suyu ilə təmin olunması üçün də əsaslı tədbirlər görülmüşdür. Cari ildə kəndimizdə əlavə olaraq bir artezian quyusu qazılmış və bir artezian quyusunun da qazılması nəzərdə tutulur.

Gənc nəslin təlim və tərbiyəsi həmişə olduğu kimi, cari ildə də ön plana çəkilmiş, kəndin mərkəzində yerləşən uşaq bağçası-körpələr evi əsaslı təmir olunmuşdur. Qarşıdan gələn ildə kənd mədəniyyət evinin də əsaslı təmir olunması üçün tədbirlər planı hazırlamışıq. Söz yox ki, bu iş də müvəffəqiyyətlə görüləcəkdir. Görülən işlərdə, həyata keçirilən tədbirlərdə kənd bələdiyyəsi də yaxından iştirak etmiş, imkanları daxilində bizə yaxından köməklik göstərmişdir. Ümumiyyətlə götürəndə icra nümayəndəliyinin, kənd bələdiyyəsinin kollektivi həmişə birgə çalışmış, kəndimizdəki problemlərin həllində bir-birimizə dayaq olmuşuq.

Kənd əhalisinin istirahətinin təşkilinə də həmişə qayğı göstərilib. Hazırda kəndimizdə iki mədəniyyət və istirahət parkı vardır. Milli qəhrəmanımız Novruz Qurbanovun adını daşıyan mədəniyyət və istirahət parkında bu il əsaslı təmir və bərpa işləri aparılmış, kənd əhalisinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Gördüyümüz işlər kənd ictimaiyyəti tərəfindən həmişə razılıqla qarşılanmış və onlarla keçirdiyimiz görüşlərdə bizə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Kəndimizdə aparılan quruculuq və abadlıq işlərinə yaxından köməklik göstərən "Karvan L" EkoSənaye Parkının sahibi, həmkəndlimiz, respublikamızda sanballı sahibkar kimi tanınan Əbülfəz Qafarovun da əməyini xüsusilə qeyd etmək istərdim. Onun rəhbərlik etdiyi sənaye parkında kəndimizin gəncləri işlə təmin olunmuş,onlara hər cür şərait yaradılmışdır. İçməli su probleminin həll olunmasında Əbülfəz müəllimin çox böyük əməyi olmuşdur. Bir sözlə, bu gün kəndimizin əhalisini ciddi narahat edən heç bir problem yoxdur.

Mən fürsətdən istifadə edib kəndimizin bütün əhalisini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə şəxsən öz adımdan, bələdiyyə sədri Cavanşir Məmmədovun adından təbrik edir, onlara xoşbəxtlik, cansağlığı, uzun ömür və ailə səadəti arzulayıram.

***Şəmsi Abbasov,***
***Göycəli kənd icra nümayəndəsi***

## *Qurultay nümayəndəsi ilə söhbət*

# Yeni vəzifələr qarşısında

***Bir neçə gün əvvəl Bakıda Azərbaycan Müəllimlərinin XV qurultayı keçirilmişdir. Bu qurultayda rayonumuzdan seçilmiş nümayəndələr də iştirak etmişdir. Rayon təhsil şöbəsi rəhbərlərinin məsləhəti ilə həmin nümayəndələrdən biri ilə həmsöhbət olmaq qərarına gəldik. Saloğlu qəsəbə orta məktəbinin direktoru Güloğlan Kərimov təklifimizi razılıqla qəbul etdi.***

***Beləliklə Saloğlu tam orta məktəbinin direktoru, Müəllimlərin XV qurultayının nümayəndəsi Güloğlan Xəlifə oğlu Kərimovla söhbətimiz baş tutdu.***



***- Güloğlan müəllim, sizinlə söhbətimizə tərcümeyi-halınızla qısa tanışlıqdan başlamaq istəyirəm.***

-Elə bir mürəkəb tərcümeyi-halım yoxdur. Sadə bir kənd uşağı olmuşam. 1962-ci ildə Saloğlu qəsəbəsində doğulmuşam. Hamı kimi mən də məktəbə gedib orta təhsil almışam və 1979-cu ildə orta məktəbi bitirib həmin il də o zamankı M.F.Axundov adına rus dili və Ədəbiyyat İnstitutuna (indiki Slavyan Universiteti) daxil olmuşam. İnstitutu müvəffəqiyyətlə bitirib Şəmkir rayonuna təyinat aldım, sərasər düz beş il rayonun Zəyəm Cırdaxan kəndində rus dili və ədəbiyyat müəllimi işləmişəm. Nəhayət 1989-cu ildə öz rayonumuza, öz doğma məktəbimizə gəlmişəm. Beləcə məktəbimizdə sevimli müəllimlərimlə çiyin-çiyinə fəaliyyət göstərmişəm.

***- Bildiyimə görə, Saloğlu məktəbi yaxınlıqdakı hərbi məktəbin ərazisində yerləşirdi.***

- Mən özüm həmin məktəbdə oxumuşam. Çox gözəl bir direktorumuz var idi, tələbkar olduğu qədər qayğıkeş, təcrübəli, savadlı bir insan idi. Mən şagird olanda da, müəllim işləyəndə də onun qayğısını həmişə duymuşam, tövsiyyələrini eşitmişəm. Mən müntəzəm olaraq ondan məsləhət alırdım. O, yaşlaşıb təqaüdə çıxanda da mən məktəb işi ilə bağlı olaraq tez-tez ona müraciət edirdim. Çünki onun bu sahədə zəngin təcrübəsi var idi, məktəb işini çox yaxşı bilirdi. Bir dəfə də məsləhət almaq üçün Nəsib müəllimin yanına gedəndə böyük bir qayğıkeşliklə mənə dedi: "Sənin qabiliyyətin, təşəbbüskarlığın məni çox sevindirir. Uzağını-yaxınını bilmirəm, bizim məktəbin direktoru sən olacaqsan..." Bu dahi insanın dediyi çin oldu, tezliklə məni tədris işləri üzrə direktor müavini, 1990-cı ildə isə direktor təyin etdilər. Bu etimad mənim məsuliyyətimi daha da artırdı. Gərgin zəhmət bahasına pedaqoji kollektivimizlə əl-ələ verib təhsil sahəsində ürəkaçan uğurlar əldə etdik. Qazandığımız uğurlar məktəbimizin şöhrətini rayonun hər tərəfinə yaydı. Rayonumuzun icra başçısı hörmətli Məhərrəm Quliyevin bizə göstərdiyi diqqət və qayğının nəticəsi olaraq məktəbimiz 2005-ci ildə dağılmış hərbi hissənin ərazisindən qəsəbəmizdə tikilən yeni binaya köçürüldü. Bir yeni binada yeni ruhla, daha böyük həvəslə işləməyə başladıq. Əməyimizə layiqli qiymət verən icra hakimiyyəti rəhbərlərinin təklifi ilə bu il mən də digər nümayəndələrlə birlikdə Respublika müəllimlərinin son qurultayına nümayəndə seçildim.

***-Qurultay təəssüratlarınızı oxucularımızla da bölüşsəniz yaxşı olardı.***

-Əvvəlcə onu deyim ki, mən müəllimlərin qurultayında ilk dəfə iştirak edirdim. Ona görə mənə hər bir məqam maraqlı gəlirdi. Ona görə həm cənab nazirin məruzəsinə, qabaqcıl müəllimlərin öz iş təcrübələrinə aid söhbətlərə rəhbər təşkilatların nümayəndələrinin çıxışlarına diqqətli qulaq asırdım. Bu çıxışları dinlədikcə öz-özümə fikirləşirdim ki, təhsildə həyata keçirilən islahatları yerinə yetirmək üçün hələ çox işləməli, müstəqil dövlətimizin və onun layiqli prezidenti cənab İlham Əliyevin sonsuz qayğısına və diqqətinə əməli işimizlə cavab verməliyik. Qurultaydakı ətraflı məruzələrdə təhsildəki islahatlar çox geniş şəkildə izah olunur, yeniliklər aydın və başa düşülən şəkildə, pillə-pillə çatdırılırdı. Bununla yanaşı qurultayda imtahanlarda tətbiq olunan yeniliklər, şagirdlərin biliklərinin qiymətləndirilməsi işində nəzərdə tutulan dəyişikliklərlə bağlı tənqidi fikirlər də səsləndi. Məndə belə bir inam yarandı ki, bu məsələlər də tezliklə öz müsbət həllini tapacaqdır. Azərbaycan təhsilinin inkişaf sahəsində əldə olunan nailiyyətlər belə bir fikir söyləməyə imkan verir deyək ki, təhsilimizin gələcəyi çox parlaqdır. Bu fikir rayonumuzun şəhər və kənd məktəblərində təhsilin səviyyəsi barədə də söyləmək olar.

***-Şübhəsiz ki, qurultaydan qayıdandan sonra işə daha böyük həvəslə, təzə qüvvə ilə başlamısınız.***

-Mən rayon təhsil şöbəsində maarifyanı şuranın üzvüyəm. Qurultaydan qayıdandan sonra şurada bütün nümayəndələrin təəssüratları dinlənildi. Sonra məktəbimizdə də pedaqoji kollektivin toplantısını keçirdik. Qurultayın qəbul etdiyi qərarların yerinə yetirilməsi üçün görəcəyimiz işləri müzakirə etdik, hər kəsin görəcəyi vəzifəni aydınlaşdırdıq. Məktəbimiz elə də böyük deyil, cəmi 253 nəfər şagirdimiz var. Onların təlim-tərbiyyəsi ilə 28 nəfər müxtəlif ixtisaslı müəllim məşğul olur. Şagirdlərimiz 15 sinifdə komplektləşdirilib. Təəssüf ki, məktəbimizdə cəmi 10 sinif otağı var. Bu səbəbdən bir növbəli dərs sisteminə keçə bilmirik. Bu da məktəbdə əlavə məşğələlərin, sinifdənkənar tədbirlərin keçirilməsinə əngəl törədir. Dövlətimizin diqqət və qayğısı sayəsində rayonumuzda yeni məktəblərin tikintisinə, cari məktəblərin əsaslı təmirinə ciddi fikir verilir. Inanıram ki, bizim məktəbdə də yaxın vaxtlarda mövcud darısqallıq aradan qaldırılacaq, təlim-tərbiyyə işinin səviyyəsini daha yüksək səviyyəyə qaldırmaq, islahatın qarşıya qoyduğu mühüm vəzifələri yerinə yetirmək üçün bizə daha yaxşı şərait yaradılacaqdır.

***Söhbəti yazdı:***
***Firdovsi Heydərli,***
***Rayon Ağsaqqallar Şurasının sədri.***

# Veteran mükafatlandırıldı



Böyük Vətən müharibəsi iştirakçıları və əlillərinin Ağstafa rayon şöbəsinin rəhbəri Əliyev Fərhad Şirin oğlu veteran hərəkatında fəal iştirakına görə Azərbaycan Veteranlar Təşkilatının sədri general-polkovnik T. Ağahüseynovun əmri ilə "30 il" yubiley medalına layiq görülmüşdür.

F. Əliyev 1931-ci ildə Qazax rayonunun Qaymaqlı kəndində anadan olmuşdur. O, orta təhsil aldıqdan sonra 1963-cü ildə indiki Polis Akademiyasını bitirmiş və elə həmin ildən 1983-cü ilə kimi polis orqanında müxtəlif vəzifələrdə çalışmışdır.

Fərhad Əliyev təqaüdə çıxdıqdan sonra öz əmək fəaliyyətini davam etdirmiş, rayonun ictimai, siyasi həyatında fəal iştirak etmiş, müxtəlif vəzifələrdə işləmişdir. O, polis orqanında olduğu kimi, ictimai işlərdə də layiqincə çalışmış və bir çox mükafatlara layiq görülmüşdür. F. Əliyev bu gün Böyük Vətən müharibəsi iştirakçılarının və əlillərinin rayon şöbəsinə rəhbərlik edir. O, həmişə veteranlarla görüşür, rayonun ictimai tədbirlərində fəal iştirak edir. Və bütün bunlara görə F. Əliyev rayon rəhbərliyinin böyük hörmət və rəğbətini qazanmışdır.

F.Əliyev Yeni Azərbaycan Partiyası rayonumuzda təşkil edilərkən, yəni 1993-cü ildən həmin partiyanın sıralarına daxil olmuş və bu gün də fəal partiya üzvü kimi tədbirlərdə iştirak edir.

Fərhad Şirin oğlu Əliyevin əməyinə yüksək qiymət verilməsi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırıq.

# Şəhid Adil Tatarovun ailəsinə ziyarət edildi



Bu günlər Ağstafa şəhər 2 saylı tam orta məktəbin müəllim və şagirdləri şəhid Adil Tatarovun məzarını ziyarət etmiş, onun Qıraq Kəsəmən kəndində yaşayan ailə üzvləri ilə görüşmüşlər.

Görüş zamanı Adil Tatarovun həyatından və torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi şücaətdən danışılmışdır. Görüşdə məktəbin direktoru Vəfa Tağıyeva, Əməkdar müəllim Nigar Bezraşvard və digərləri çıxış edərək qeyd etmişlər ki, Adil qısa ömür yaşasa da canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük bir igidlik məktəbi qoymuşdur. İndi hər bir azərbaycanlı Adil Tatarovun mübarizə dolu həyatı ilə fəxr edir, onun vətən uğrunda gedən döyüşlərdə şəhid olmasından qürur hissi keçirirlər. Görüşdə qeyd edildi ki, Adil ölümün gözünə dik baxaraq vətən sevgisinin heç nə ilə əvəz olunmadığını bir daha sübut etdi. Bu şücaəti ilə o, Azərbaycan gəncliyinə baş ucalığı gətirdi.

Bu gün hər bir gənc Adil Tatarovun qəhrəmanlığından örnək alır, nümunə götürür. Şəhidin atası Əli Tatarov görüş zamanı ölkə rəhbərliyi tərəfindən onların ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarına öz dərin minnətdarlığını bildirdi.

Ziyarət iştirakçıları görüşdə Adil Tatarova Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun əmri ilə verilən "Şücaətə görə" medalı, dövlət başçısının sərəncamı ilə "Vətən uğrunda" medalı və onun həyat yolunu əks etdirən müxtəlif şəkillərdən ibarət hazırlanmış guşə ilə tanış oldular.

# Məktəbdə görüş

Ağstafa şəhər 2 saylı tam orta məktəbində müntəzəm olaraq mədəni kütləvitədbirlərin, maraqlı görüşlərin keçirilməsinə ciddi fikir verilir. Bu məqsədlə məktəb rəhbərliyi xüsusi tədbirlər planı hazırlayıb həyata keçirir. Bu günlərdə həmin plana uyğun olaraq məktəbdə daha bir maraqlı görüş keçirilmişdir. Məktəb kollektivinin bu dəfəki qonağı rayon Ağsaqqallar Şurasının sədri, yazıçı-jurnalist Firdovsi Heydərli olmuşdur.

Görüşə məktəbin müəllim və şagirdləri, rayon ağsaqqalları, valideynlər və ictimaiyyət nümayəndələri toplaşmışdılar.Ağsaqqallar Şurasının sədri, yazıçı-jurnalist Firdovsi Heydərli şagirdlərin suallarını cavablandırıb, keçdiyi həyat yolundan, jurnalistlik və kitab nəşri fəaliyyətindən danışmış, sevimli uşaqlardəyərli məsləhətlər vermişdir. Məktəblilər F. Heydərlinin bir neçə şeirini əzbər söyləmişlər, rayon ağsaqqalları öz yoldaşları haqqında ürək sözlərini bildirmişlər.



Məktəbin direktoru Vəfa Tağıyeva bu maraqlı görüş üçün yazıçı-jurnalist Firdovsi Heydərliyə, görüşün yüksək səviyyədə təşkili və maraqlı keçməsi üçün məktəbin ədəbiyyat müəllimi, istedadlı ədəbiyyatçı "Əməkdar müəllim" Nigar Bezraşvarda sonsuz təşəkkürünü bildirmişdir.

Axırda rayon Ağsaqqallar Şurasının sədri, yazıçı-jurnalist Firdovsi Heydərli böyük həvəslə görüşə toplaşan məktəblilərə və valideynlərə, həmçinin ağsaqqal dostlarına, xüsusilə də bu yüksək səviyyəli görüşün təşkili üçün rayon təhsil şöbəsinin və məktəbin rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

# Sağlamlığı qorumaq hər kəsin özündən asılıdır

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə tütünçəkmənin təsirindən hər 13 saniyədə bir nəfər həyatını itirir. Tütünçəkmə iştahanın pozulmasına, həzm prosesinin çətinləşməsinə, dişlərin saralmasına, mədə yarası, qırtlaq, ağ ciyərlər, dodaq, dil və qida borusu xərçənginin yaranmasına səbəb olur. Öskürmə, xroniki bronxit və ağ ciyərlərin emfizeması yaranır. Tütünçəkmə damar divarının elastikliyini pozmaqla, ətrafların damarlarında qanın pozulmasının maksimum azaldaraq endoartiritə və qanqrenaya səbəb olur. Bu isə son nəticədə əl və ayaqların amputasiyasına (kəsilməsinə), şikəstliyə gətirib çıxara bilir. Beyni qidalandıran damarlardada elastikliyin azalması iflic törədə bilir.

Ürək xəstəliklərinin, xüsusən ölkəmizdə və bütün dünyada ölümə ən çox səbəb olan xəstəliklərdən biri olan miokard infarktının əmələ gəlməsinə zəmin yaradır. Tütünçəkmə hər il ürək-damar xəstəliklərindən təxminən 2 milyon insanın ölümünə səbəb olur. Tütünçəkmə insanların cinsi və nəsilartırma fəaliyyətlərinə ciddi mənfi təsir göstərir. Tütünçəkmə nəticəsində orqanizmdə vitaminlərin, ocümlədən C vitaminin mənimsənilməsi çətinləşir və damarların divarında xolesterinin yığılması surətlənir. Tütünçəkənlərdə xroniki qastrit mədə və on iki barmaq bağırsağın xoraları müşahidə olunur.

Tütünçəkməyə vərdiş etməyənlər heç bir zaman bu işə başlamasınlar, çəkənlər isə tərgitməyin yollarını axtarsınlar. Unutmayın yalnız özünüzü deyil, ailənizi birlikdə çalışdığınız iş yoldaşlarınızı və hətta eyni nəqliyyatda sizinlə birlikdə yol gedən insanları belə tütün tüstüsü ilə zəhərləyirsiniz.

Əgər siqareti birinci dəfədən tərgidə bilməsəniz bu işi daha, bir daha təcrübədən keçirin..

Nəhayət müvəffəq olacaqsınız.

# Gələn ilin bol məhsulunun təməli qoyuldu

***Rayonumuzun iqtisadiyyatının əsasını təşkil edən sahələrdən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə son illər diqqət xeyli artırılmış və bütün bunların nəticəsi olaraq 2018-ci ildə bu sahədə uğurlu nəticələr əldə olunmuşdur.***

***Yola saldığımız ildə taxılçılıq, üzümçülük və eləcə də digər sahələrdə qarşıya qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə yerinə yetirilmiş, əkin sahələrindən nəzərdə tutulduğundan xeyli çox məhsul götürülmüşdür.***

Ölkəmizdə aqrar sahənin inkişaf etdirilməsi və bu əsasda əhalinin gündəlik qida rasionuna daxil olan çörəklə etibarlı şəkildə təmin edilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Yaradılan aqrar islahatlar sistemi kənd təsərrüfatında yeni münasibətlərin formalaşmasına və nəticədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Dövlətin birbaşa yardımları və dəstəyinin nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının bu sahəyə marağı artmağa başlamışdır.

Ötən illərdə əldə olunmuş nailiyyətlər kənd əməkçilərini daha da ruhlandırmış, 2019-cu ildə daha çox məhsul tədarük etmək üçün bütün qüvvələr səfərbər edilmişdir.

2018-ci ilin yanvar-dekabr aylarının nəticələri 2017-ci ilin həmin dövrləri ilə müqayisə edildikdə məlum olur ki, payızlıq şum qaldırılması 102.4 faiz, dən və yaşıl yem üçün payızlıq bitkilər səpini 100.8 faiz yerinə yetirilmişdir.

2017-ci ildə buğda əkini üçün 8542 hektar sahədə şum qaldırılmışdırsa, bu ilin həmin dövründə 8615 hektar sahə şumlanmışdır. Bu göstəricilər arpa səpini işində də müsbət qiymətləndirilməlidir. Belə ki, keçən illə müqayisədə bu il arpa səpmək üçün 1645 hektar sahədə şum qaldırılmışdır ki, bu da keçən ilin müvafiq dövründən xeyli çoxdur. Xəsil əkini üçün şum qaldırılması işi də artıqlaması ilə yerinə yetirilmişdir.

Əlbəttə, bütün bunlar gələn il üçün bol məhsul tədarük edilməsi işinin başlanğıcıdır. Söz yox ki, taxılçılarımız qarşıdan gələn ildə də bol məhsul tədarük etmək üçün bütün imkanlarından səmərəli istifadə edəcək, dövlətimz tərəfindən onlara göstərilən diqqət və qayğıya öz layiqli işləri ilə cavab verəcəklər.

***Kənan İbrahimov,***
***Rayon Statistika İdarəsinin rəisi***

**Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliyinin artırılması haqqında Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 №-li əmrinə əsasən 2019-cu ilin 1-ci rübündə vətəndaşların yaşayış və iş yerləri üzrə**

**Q Ə B U L  C Ə D V Ə L İ**

| Sıra №-si | Yaşayış və iş yeri | Qəbul günü | Qəbul saatı | Qəbulu aparan şəxsin vəzifəsi, adı və soyadı |
|---|---|---|---|---|
| 1 | Ağstafa rayonu Eynallı kəndi | 10 yanvar | 15:00 | Prokuror Aslan Surxayev |
| 2 | Ağstafa rayonu Sadıxlı kəndi | 25 yanvar | | Prokurorun böyük köməkçisi Emil Qurbanov |
| 3 | Ağstafa rayonu Düz Qışlaq kəndi | 08 fevral | | Prokuror köməkçisi Rəhim Hüseynli |
| 4 | Ağstafa rayonu Yuxarı Göycəli kəndi | 20 fevral | | Prokuror Aslan Surxayev |
| 5 | Ağstafa rayonu Aşağı Göycəli kəndi | 14 mart | | Prokurorun böyük köməkçisi Emil Qurbanov |
| 6 | Ağstafa rayonu Poylu kəndi | 28 mart | | Prokuror köməkçisi Rəhim Hüseynli |

**Ağstafa rayon prokuroru baş ədliyyə müşaviri: Aslan Surxayev**

# Poeziya çələngi

*Şirin Namazov*

### Oyanmadı
(təcnis)

Vəfasız gözəlin oduna yandım,
Lap cızdağım çıxdı, heç o yanmadı,
Gecə xəyallanıb, gündüzlər andım,
Heç xatırlamadı, heç oy, anmadı.

Taleyə bax, qismətə bax, baxta bax,
Fələklə qumara girdim baxtabaxt,
Çağırdım, bağırdım oyan baxt, a baxt,
Nə qədər qışqırdım heç oyanmadı.

Baxtı oyaqlara uzaqdan baxdım,
Od olub alışdım, su olub axdım,
Şirinə baxmadın, yuxulu baxtım
Yat yatdığın kimi heç oyanma di!

*Nəriman Mehdixanlı*

### Eylərdi

Qələmin gücünə qalsaydı əgər,
Şairlər dünyanı abad eylərdi,
Zülmü, zülümkarı silib dünyadan,
Bəşərin dəlbini gülşad eylərdi.

Qoymazdı tökülə nahaq qanları,
Ya da ki, dağıla xanimanları,
Çarmıxa çəkərdi pis adamları,
Sərsəm xəyalları bərbad eylərdi

Arzuman aqilləri çəkərdi başa,
Düz qiymət verərdi ağıllı başa,
Soyğunçu kəsləri tutardı daşa
Fəqirə, kasıba imdam eylərdi.

*Şahin Quran*

### Dağlara

Qadir Allah bir tamaşa yaradıb,
Baxmaqla doymayır gözüm dağlara,
Gənclikdə çox gəzdim, nə ola indi
Bir çıxa biləydim özüm dağlara.

Yenə gözüm gördü dağıldı dərdim,
Çox laləsin üzdüm, nərgizin dərdim,
Çox ellər dolandım, çox dağlar gördüm,
Heç biri bənzəməz bizim dağlara.

Sizlərə bağlıdır uşaqlıq çağım,
Siz mənim ilhamım, zirvəli dağım,
Yaşıl yamaclara dəyib ayağım,
Görəsən düşübmü izim dağlara.

Diş göynədən buz bulağın var olsun,
Sənə dostlar mehman olsun, yar olsun,
Şəfalı yaylağın dildə car olsun,
Hələ tükənməyib sözüm dağlara.

Göyçəmiz düşmənlər əlində qalıb,
Başları qatılıb, xəyala dalıb,
Dədə Ələsgəri yadıma salıb,
Şahinəm, diləræm dözüm dağlara.

*2008*



## El şairinin anım günü

**Dekabrın 29-da istedadlı el şairi Allahverdi Atəşin vəfatının ildönümü günüdür. Unudulmaz söz ustadı 2001-ci ildə həmin gün dünyasını dəyişərək əbədiyyətə qovuşmuşdur. Onsuz da həyatda bir xoş gün görməyən Atəş 64 yaşında Qıraq Kəsəmən kəndində torpağa tapşırılmışdır.**

**El şairinin əziz xatirəsini yad edərək onun bir neçə şeirini oxuculara təqdim edirik:**

*Allahverdi Atəş*

### Çətin olar

Xeyli yer gəzmişəm, a dağ gözəli,
Gözəllikdə sənə tay çətin olar,
Gözlərintək görənləri oxlayan,
Qaşın kimi əyri yay çətin olar.

Bir sevmək var, bir eşq evi talanmaq,
Bir yanmaq var, bir atəşə qalanmaq,
Səni sevib səndən ayrı dolanmaq,
Həftəni bilmirəm, ay çətin olar.

Dəli demə hal olmamış halından,
Gözünü çəkənə dünya malından,
Can versə də, ləblərinin balından,
Bilirəm, Atəşə pay çətin olar.

### Niyə küsdürdün?

Könül hər dəfə adını
Anmışı niyə küsdürdün,
Səndən otru tanrısını
Danmışı niyə küsdürdün?

Səni canı, gözü bilib,
Ürəyinin közü bilib,
Hesabını özü bilib
Qanmışı niyə küsdürdün?

Atəş, yol-ərkanı tanı,
Tutan deyilsən dünyanı,
Bu şeytan ciyəri-canı
Yanmışı niyə küsdürdün?

### Əridərdimi
*(Təcnis)*

Məni bəyənmədi, getdi gör kimə,
Alsın filankəsin əri dərdimi,
Səndən mənə bağban olmaz-deyirdi,
Əri becərdimi, əri dərdimi?

Necə kəssin qul biçarə qulağı,
Yeməyibsə bircə qismət qul ağı,
Məni atdı, tutdu uzunqulağı,
Ağıllı o canı əridərdimi?!

Atəşi yandıran od olammadı,
Gördünmü, başına o dolanmadı,
Guya dolandığı o dolanmadı,
Əri açıq süfrə, əri dərdimi?

### Məni

Gəzirmiş obada əli kösövlü,
Bədbəxtlik hamıdan tez tapıb məni,
Təzə mayalanmış pendir kəsməyən,
Ağıl tapıb məni, üz tapıb məni.

Bəxti qaçaq olar namus-arlıdan,
Görsə kim əl çəkər bağı barlıdan,
Al-şal yapşıbdır varlı-karlıdan,
Görüb alan yoxdur, bez tapıb məni.

Atəş, kimdir tanrısından küsənlər,
Bir manat nəzirə əli əsənlər,
Kasıbın danasını damda kəsənlər,
Deyir qismətimdi, düz tapıb məni.



*Qurban Həmidoğlu*

### Oruc həkim
***Əziz dostum, qayğıkeş həkim Oruc İsmayıl oğlunun xatirəsinə***

Əziz dostum, sən tez getdin,
Bu ülfətdən məhrum etdin,
Göz nuruydun, gözdən itdin,
Eli sevən Oruc həkim.

Söz-sənətin acı idin,
Qardaş-bacı tacı idin,
Çox dərdin əlacı idin,
Eli sevən Oruc həkim.

Vurğun oldun təbiətə,
Oğul oldun bu millətə,
Sən layiqsən məhəbbətə,
Eli sevən Oruc həkim.

El-obaya sirdaş oldun,
Xəstələrə yoldaş oldun,
Sən Qurbana qardaş oldun,
Eli sevən Oruc həkim.



# Yaşayış evlərini yanğından qoruyun!

Bu gün müstəqil Azərbaycanımızı böyük inşaat meydanına bənzətmək olar. Ölkə iqtisadiyyatının inkişafı şəhər və rayonlarımızın, qəsəbə və kəndlərimizin mənzərəsini gündən-günə dəyişir, yeni tikililər, xüsusən də təzə salınan yaşayış massivləri əhaliyə daha firavan həyat bəxş edir.

Təbii ki, istər müasir dövrdə tikilən və istərsə də köhnə evlərdə sakinlər qazdan və elektrik enerjisindən istifadə etməklə öz məişət problemlərini həll edirlər. Deməli olar ki, hər bir ailədə cürbəcür məqsədlər üçün müxtəlif kimyəvi maddələrdən, tezalışan mayelərdən istifadə olunur. Bütün bunlar isə mənzillərdə yanğın təhlükəsizliyinə ciddi əməl olunmasını tələb edir. Hər bir vətəndaş bilməlidir ki, evlərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması, qaz ki, onlara tezalışan və yanar tərkiblər doldurulmuşdur və onlar daima təzyiq altında olduğundan təhlükəsi də çoxdur.

Linoleumu və ya parketi döşəməyə yapışdırmaq üçün istifadə olunan kimyəvi yapışdırıcı maddələri qaz və başqa qızdırıcı cihaz üzərində qızdırmaq nəticəsində də yanğın hadisələrinə tez-tez təsadüf olunur.

Evlərdə yanğın hadisələri tonqaldan da baş verə bilər. Yadda saxlamaq lazımdır ki, əgər tonqal yaşayış yerinin yaxınlığında qalanmışsa - bu ciddi yanğın təhlükəsi yaradır. Tonqal qalandıqda küləyin təsirindən havaya qalxan qığılcım zibilin, quru otun, inşaat materialları qalıqlarının yanma ehtimalını artırır, bu isə evlərdə yanğın baş verməsi üçün kifayət edir.

Televizorlardan istifadə edərkən yanğın və elektrik cihazlarından düzgün istifadə olunmaması, uşaqların odla dəcəlliyinə etinasız münasibət insan itkisi, külli miqdarda maddi ziyanlarla nəticələnən böyük yanğınlara səbəb olur.

Aparılan araşdırmalar göstərir ki, yaşayış yerlərində baş verən yanğınların əsas səbəbi od ilə ehtiyatsız davranmaqdır.

Siqaret çəkilərkən etinasız davranışlar xüsusilə təhlükəlidir. Unutmamalıyıq ki, siqareti alışdırarkən kibriti və ya siqaretin qalığını yana-yana hara gəldi atmaq, yaxud taxta üstünə, hətta od ilə azacıq təmasda alışa bilən şeylərin yaxınlığına qoymaq böyük yanğınlar törədir

Evlərdə qızdırıcı sobalardan istifadə edərkən yanğın təhlükəsizliyinə xüsusilə ciddi diqqət yetirmək lazımdır. Odun sobalarından istifadə edərkən soba bacalarına tez-tez nəzarət edilməli, onlar hər qış mövsümündə təmizlənməlidir. Sobalar yanmayan bir əşya üzərində yerləşdirilməli və ya onunla soba arasına yanmayan bir qoruyucu yerləşdirilməlidir. Pərdə, masa, taxta, parça əşyalar sobadan 60 sm uzaqda olmalıdır. Sobada uyğun yanacaq yandırılmalıdır. Kül metal qablarla boşaldılmalıdır.

Soba holl, qapı ağzı kimi evdə hərəkətin çox olduğu yerlərdə qoyulmamalıdır. Sobalar istifadə edilmədikdə çöldə, uşaqların əllərinin çata bilməyəcəyi bir yerdə saxlanılmalıdır. Sobanın giriş qapağı kip bağlanmalıdır.

Sobanın istifadə edildiyi yer yaxşıca havalandırılmalıdır.

Daşınan elektrik sobalarından istifadə zamanı yatarkən soba elektrik şəbəkəsindən ayrılmalıdır. Elektrik sobalarından paltar qurutmaq məqsədi ilə istifadə edilməməlidir.

Kimyəvi maddələrlə, tezalışan mayelərlə ehtiyatsız davranmaq da evlərdə yanğının baş verməsi ilə nəticələnə bilər. Məlum olduğu kimi, bu gün hər bir müasir evdə və mənzildə məişət kimyasına aid yanğın təhlükəli kimyəvi maddələr və materiallar vardır. Hər cür əridicilərə, nitrolaklara, rənglərə, mastikalara, ziyanverici və parazit həşəratlarla mübarizə məqsədilə işlədilən kimyəvi dərmanlara evlərdə çox vaxt rast gəlmək mümkündür. Həmçinin, bəzəkdüzəyə aid kimyəvi maddələr də yanğın cəhətdən artıq dərəcədə təhlükəlidir. Belə ki, saç, dırnaq və saire üçün işlədilən müxtəlif laklar, kiçik aerozol qablarında satılan digər məişət kimyası yanğın təhlükəlidir. Belə təhlükəsizliyi qaydalarının pozulması da yanğınlara səbəb ola bilər. Birinci növbədə qeyd etmək lazımdır ki, televizor elektrik cərəyanı ilə işlədiyindən, ona daim nəzarət olunmalıdır. Televizorlardan istifadə edərkən standartlara uyğun olmayan qoruyuculardan istifadə etmək yanğın təhlükəsizliyi qaydalarına ziddir. Televizorun uzun müddət fasiləsiz işləməsi də yanğınla nəticələnə bilər. Televizorun arxa qapağındakı dəliklərin tutulmasına yol vermək olmaz. Televizorlardan istilik batareyalarının, digər qızdırıcı cihazların yanında qoyulması, həmçinin, mebel içərisində quraşdırılması yanğının baş verməsinə səbəb ola bilər.

Qışda kəskin soyuqlar başladığı zaman su kəmərləri və kanalizasiya boruları, mərkəzi qızdırma boru və cihazları, çardaqlarda qoyulan çənlər donur. Yanğın təhlükəsizliyi tədbirlərinə etinasızlıqla baxanlar çox vaxt onları açıq odla qızdırırlar. Bu isə çox vaxt yanğınla nəticələnir. Bu cür boruların donunu açmaq üçün yalnız qaynar su və ya qızdırılmış qum işlədilməlidir.

Uşaqlar tərəfindən od ilə dəcəllik də mənzillərdə yanğınlara səbəb olur. Evdə və ya mənzildə tək qalmış uşaq kibriti götürə bilər, böyüklərin etdiyi kimi, kağız yandırar, qızdırıcı elektrik cihazını şəbəkəyə qoşar, hətta bir vaxt meşədə, bağda və başqa yerlərdə gördüyü kimi, tonqal da yandıra bilər. Böyükləri təlqin edərək bəzən uşaqlar hətta siqaret çəkməyə də təşəbbüs göstərə bilərlər.

Uşaqları mənzildə tək qoyub qapını bağlamaq olmaz, yanmaqda olan sobalara və qızdırıcı cihazlara nəzarət etməyi də onlara etibar etmək yaramaz, bunlardan əlavə, azyaşlı uşaqlara qızdırıcı cihazları cərəyana qoşmağa da icazə vermək olmaz.

Yadda saxlamaq lazımdır ki, ərazini tikinti materialları və alışqan maddələrlə doldurduqda, işıqlandırmaq üçün açıq alovdan (şam, məşəl) istifadə etdikdə, sobanın üzərində və yanında paltar və ya odun quruduqda, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və elektrik qızdırıcı cihazlarından istifadə etdikdə, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonları saxladıqda, qaz cihazlarında nasazlıq olduqda, siqaret çəkərkən diqqətsizlik etdikdə, uşaqlar odla oynadıqda və s. hallarda real yanğın təhlükəsi yarana bilər.

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# Yeni il şənliyi keçirilərkən yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalıdır

Təqvim ilinin dəyişməsi -Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olmuşdur. Hər il dekabr ayının sonu, yanvar ayının əvvəllərində evlərdə, təhsil ocaqlarında, istirahət parklarında və digər obyektlərdə yolkalar qurulur, onlar müxtəlif bəzək əşyaları ilə bəzədilərək işıqlandırılır. İnsanlar, xüsusən uşaqlar yolkanın ətrafında təşkil olunan şənlikdə iştirak edir, əylənirlər.

İnsanların bir yerə toplaşdıqları bu Yeni il şənliklərində onların təhlükəsizliyinin qorunması vacibdir. Xüsusən atəşfəşanlıqla müşayiət edilən belə şənliklərdə yanğın təhlükəsi ehtimalı çox olduğundan yanğın təhlükəsizliyi qaydalarını bilmək və ona əməl etmək olduqca vacibdir. Ona görə də Yeni il şənliyi keçirilən obyektlərin rəhbərləri, şənlik iştirakçıları bilməlidirlər ki, mülkiyyət formasından asılı olmayaraq bütün obyekt və müəssisələrdə (sahibkarlıq subyektlərində və s.) yanğın təhlükəsizliyinin təmin edilməsində cavabdehlik onların rəhbərlərinin üzərinə düşür.

Obyektin bütün işçiləri yanğına qarşı təlimatlandırılmalı və onlar baş verə biləcək yanğın hadisəsi zamanı vəzifələrini dəqiq bilməlidirlər!

Ehtiyat çıxış yollarının qarşısı əşyalarla tutulmamalı və sərbəst çıxışa mane olan qurğular quraşdırılmamalıdır. Köçürmə yolları işıqlandırılmalı və birbaşa çıxışa doğru acılması təmin edilməlidir.

Yeni il yolkası binanı tərk etməyə iki sərbəst çıxış yolu olan və ehtiyat çıxış qapılarının üzərində yaşıl rəngli "ÇIXIŞ" sözü (elektriklə işıqlandırılmış) yazılmış göstərici lövhə asılan, eləcə də ikinci mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələr olan otaqlarda qurulmalıdır!

Yolka ağacı yerə möhkəm bərkidilməli, dayaqlar üzərində elə quraşdırılmalıdır ki, onun budaqları tavana və divarlara toxunmasın!

Yeni il şənlikləri zamanı tikintinin imkanlarından (normadan) artıq insanların zala buraxılmasına (toplanmasına) yol verilməməlidir!

Yeni il şənlikləri keçirilən yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir!

Yeni il şənliklərində atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi qadağandır!

Yeni il şənlikləri keçirilən obyektlərin pəncərələrində dəmir barmaqlıqlar olmamalıdır!

Yeni il şənliklərində yolkanın şamla işıqlandırılmasının yanğın təhlükəsi yaratdığını nəzərə alaraq buna yol verilməməlidir!

Yolka bəzədilərkən pambıqdan, tənzifdən və s. tezalışan parçalardan istifadə edilməməlidir!

Yeni il şənlikləri keçirilən zaman uşaqların geydiyi şənlik paltarları tezalışan materialdan olmamalıdır!

Tədbir keçirilən obyektlərdə giriş və çıxışlarda insanların toplaşmasına, əşyaların (stol, stul və s.otaqlarından) yığılmasına yol verilməməlidir!

Otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir!

Şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır!

Tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi qadağandır!

Oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması yolverilməzdir!

Yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və digər məsul şəxslərin olmadığı zaman obyektlərdə tədbirkeçirmək olmaz!

## Yanğın zamanı nə etməli

Tədbir zamanı yanğın baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə zəng vuraraq məlumat vermək lazımdır!

İşıqlandırıcı vasitələr dərhal şəbəkədən ayrılmaqla söndürülməlidir!

Tədbir iştirakçılarının dərhal təxliyə olunmasına başlanılmalıdır!

Əldə olan vasitələrlə yanğının söndürülməsinə başlamaq lazımdır!

Yeni il şənlikləri zamanıyanğın təhlükəsizliyinə əməl edin!

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# Elanlar

Yuxarı Göycəli kənd sakini Ələkbərov İbrahim İbrahim oğlunun adına olan sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Poylu qəsəbə sakini Orucov Oruc Nəsir oğlunun adına olan 636 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhər sakini Hüseynov Səməd Lətif oğlunun adına olan Ceyrançöl qışlağının ərazisində yerləşən 2612002364 qeydiyyat nömrəli (reyestr nömrəsi 502011004791) Reyestrdən çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

* * *

Poylu qəsəbə sakini, mərhum Xatınova Simuzər Kabı qızının adına olan fərdi yaşayış evinin 600 nömrəli Qeydiyyat vəsiqəsi və Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Poylu kənd sakini, mərhum Yüsifova Teybə Mansır qızının adına olan 405 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Poylu kənd sakini Yusifov Əli Mahmud oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN 700 nömrəli (kod 50209018) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

# Allah rəhmət eləsin!

Allah rəhmət eləsin!

Ağstafada fəaliyyət göstərən Hüseyn Arif adına ədəbi məclisin üzvləri müəllim-şair Telman Kürsoya, həyat yoldaşı

**Qəmər Məmmədovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli şair dostu Telman Kürsoya, həyat yoldaşı

**Qəmər Məmmədovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Ağstafa" qəzetinin əməkdaşları şair Telman Kürsoya, həyat yoldaşı

**Qəmər Məmmədovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

***Redaksiya heyəti***

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*